Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı

JTCEM, Vol 1, Issue 1
Tarixi səhifə
*Səh. 13-20*

# Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının 100 yaşı tamam olur

İndiki İnsan anatomiyası və tibbi terminologiya kafedrası rəsmi olaraq 1919-cu il sentyabr ayının 1-də təşkil edilib. Fəxrlə demək olar ki, kafedra, keçən il ölkə prezidenti, cənab İlham Əliyevin rəhbərliyi altında 100 – illik yubileyini təntənə ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin ən sədaqətli övladlarından, onun yetirmələrindən biri sayılır.

Heç də təsadüfi deyildir ki, o vaxtkı Normal anatomiya kafedrası həmin dövrdə təşkil edilən indiki Bakı Dövlət Universitetinin tibb fakültəsi tərkibində yaradılıb, özünün tədris muzeyi ilə birlikdə böyüyərək məhşurlaşıb. 1918-ci il Qafqazyanı ölkələrin (Azərbaycan və Gürcüstan nəzərdə tutulur, çünki həmin dövrdə Ermənistan adlı dövlət qurumu, ümumiyyətlə, yox idi, bu respublika sonralar keçmiş SSRİ rəhbərliyinin təkidi ilə Azərbaycan torpaqları hesabına yaradıldı, zor gücünə qədim Azərbaycan şəhəri olan İrəvan Azərbaycanın əlindən alınıb, bütün demokratik prinsiplər pozularaq, Ermənistanın paytaxtı elan edildi) dövlət müstəqilliyi əldə etdikləri il idi. Ermənistan isə paytaxt şəhəri olmayan qondarma "müstəqil dövlət" elan edilmişdi.

Hələ 1918-ci ildə Qafqazyanı ölkələrdə yerləşdirilən rus ordusunun görkəmli həkimlərindən cərrah-anatom professor V.İ.Razumovski, patoloq-anatom professor İ.İ.Şirokoqorov (tibb fakültəsinin ilk dekanı, Patoloji anatomiya kafedrasının müdiri) və başqaları Qafqazyanı ölkələrdən birində universitet təşkil etmək və orada qalıb işləmək istəyirdilər. Xeyli mübahisəli məsələlərdən sonra Azərbaycanın paytaxtı Bakı şəhərinə üstünlük verildi və Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Bakı Universitetinin (indiki Bakı Dövlət Universiteti) yaradılması haqqında qərar qəbul etdi. Bakı Universitetinin iki fakültəsindən biri və ən böyüyü Tibb fakültəsi oldu. Tibb fakültəsinin ilk tibbi tədrislə məşğul olan kafedrası isə Normal anatomiya kafedrası idi. Professor V.İ.Razumovski Bakı Universitetinin ilk rektoru olmaqla yanaşı, həm də Tibb fakültəsinin Normal anatomiya kafedrasının müdiri vəzifəsini də yerinə yetirirdi. Bakı Universitetində ilk tədris məşğələlərinə başlanılması 1919-cu il noyabrın 15-nə təyin edilsə də, bu, yalnız noyabrın 20-də baş tutub və həmin gün Bakı Universitetinin, onun Tibb fakültəsinin və Normal anatomiya kafedrasının tarixində "Tibbə və anatomiyaya giriş" mövzusunda ilk mühazirəni professor V.İ.Razumovski oxuyub. Bununla da, Azərbaycanda ilk ali təhsilin, o cümlədən ilk ali tibb təhsilinin təməli qoyulub. Sonralar professor V.İ.Razumovskinin həmin tarixi mühazirəsinin mətninin orijinalını 1920-1922-ci illərdə kafedraya rəhbərlik edən prozektor Corbəy Urusov kitabça şəklində çap etdirib. Hazırda həmin kitabça ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının muzeyi nəzdindəki tibbi kitabxanada saxlanılır.

1920-ci ilin may ayında professor V.İ.Razumovski öz vətəni Saratova getmək qərarına gəlib. Corbəy Urusovdan sonra 1922-1926-ci illərdə kafedra professor K.N.Malinovskinin rəhbərliyi altında fəaliyyət göstərib, professor K.N.Malinovskinin vəfatından

sonra isə 1926-1937-ci illərdə kafedraya professor N.İ.Anserov rəhbərlik edib.

1926-cı ildə professor K.N.Malinovskinin təqdimatına əsasən İnsan anatomiyası kafedrasında saxlanılan K.Ə.Balakişiyev 1937-ci ildə doktorluq dissertasiyası müdafiə etdikdən sonraprofessor N.İ.Anserov Moskvaya qayıdıb və 1937-1973-cü illər ərzində kafedra ilk milli kadr – əməkdar elm xadimi, tibb elmləri doktoru, professor K.Ə.Balakişiyevin rəhbərliyi altında fəaliyyət göstərib. Onun vəfatından sonra kafedra 1973-1990-cı illər ərzində əməkdar ali məktəb işçisi, tibb elmləri doktoru, professor G.Ş.Hacıyevin, 1990-1995-ci illərdə isə əməkdar elm xadimi, tibb elmləri doktoru, professor R.Ə.Əsgərovun müdirliyi ilə fəaliyyətini davam etdirib. 1995-ci ildən indiyə qədər kafedraya Rusiya Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, əməkdar həkim, tibb elmləri doktoru, professor bu sətirlərin müəllifi V.B.Şadlinski rəhbərlik edir.

İlk təşkil olunanda kafedra indiki Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin köhnə binasının II mərtəbəsində yerləşdirilib (Üzeyir bəy Hacıbəyli küçəsi 39). Əvvəlcə kafedra aztəchizatlı iki otağa malik olub. Otaqlardan biri kafedra müdirinin kabineti və müəllimlər otağı, digəri isə həm sümük muzeyi, həm də tələbələr üçün tədris otağı adlandırılıb. 1920-ci ildə Universitetin həyətindəki birmərtəbəli köməkçi bina tədris işlərini yerinə yetirmək üçün, digər kiçik birotaqlı bina isə maserasiya işlərini həyata keçirməyə görə kafedraya verilib. Bununla da kafedranın ümumi sahəsi bir qədər genişləndirilib və tədris işlərinin daha keyfiyyətli aparılmasına minimal şərait yaradılıb.

1927-ci ildə maserasiya işləri aparılan bina yararsız hala düşdüyünə görə, onun yerində ümumi sahəsi 102 kv.m olan yeni texniki korpus tikilib və kafedranın ixtiyarına verilib. Sonrakı illərdə də kafedranın sahəsinin genişləndirilməsi tədricən davam etdirilib. Belə ki, 1929-cu ildə artıq kafedraya universitetin əsas binasında ümumi sahəsi 408 kv.m olan 7 otaq verilib. Beləliklə, həmin dövrdə kafedra birmərtəbəli tədris binası və texniki korpus ilə yanaşı, daha 7 tədris otağına da malik olub. Əsas binadakı otaqlarda sümük muzeyi, splanxnologiya və embriologiya ilə birlikdə müqayisəli anatomiya muzeyi, professorun və kafedra əməkdaşlarının kabinetləri, həmçinin preparator otağı yerləşirdi. Tədris binasında 100 nəfərlik auditoriya, 25 stola malik seksiya zalları (Anatomik Teatr) və meyit saxlamaq üçün hovuz, texniki korpusda isə kremasiya və maserasiya otaqları, skeletin sümüklərini tam şəkildə bir-birinə bəndləmək üçün emalatxana, sümük saxlanılan otaq var idi. Əsas binanın ikinci mərtəbəsindəki 10 kv.metrlik enli dəhlizdə sümük muzeyinin bir hissəsinin eksponatları və tədris tabloları yerləşdirilib.

1930-cu il may ayının 9-da Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldıqdan sonra tələbələrin (xüsusilə də Azərbaycanlı tələbələrin) sayı və dərs yükü artdığına görə, həmçinin, Azərbaycan bölməsi tələbələri üçün ana dilində tədris aparmaq məqsədi ilə dərslik və dərs vəsaitləri, terminologiya kitablarının olmasının vacibliyinə kəskin ehtiyac yarandığına görə kafedra əməkdaşlarının işi əvvəlki illərə nisbətən daha da çoxalmışdır. 1932-ci ildə ATİ-nin rektoru professor Əziz Əliyevin təşəbbüsü ilə milli ana dilində dərslik və dərs vəsaitləri yazılmasına başlanılıb. Normal anatomiya kafedrasında bu iş o zamanlar dosent vəzifəsini daşıyan K.Ə.Balakişiyevə həvalə edilib. O, ilk dəfə Azərbaycan dilində mövcud proqrama əsasən müxtəlif mövzular üzrə anatomiya fənninə aid dərslik və dərs vəsaitləri hazırlayıb.

II Dünya müharibəsi dövründə və ondan sonrakı illərdə kafedra yerləşdiyi binaları 5 dəfə

dəyişmək məcburiyyətində qalıb. Bir binadan digərinə köçmələr zamanı kafedranın əmlaklarında itkilər də az olmayıb. Lakin əməkdaşların və tələbələrin əzmkarlığı, fəal köməyi nəticəsində kafedranın muzey preparatlarının və digər əmlakının əsas hissəsini qoruyub saxlamaq mümkün olubdur. 1941-ci ildə kafedra bir yox, bir neçə binada yerləşdirilib. Belə ki, Kiçik Dəniz küçəsi 4 ünvanındakı Azərbaycan Dövlət Tibb İnstitutunun nəzəri korpusunun birinci mərtəbəsində anatomiya muzeyi, Tolstoy küçəsi 199 ünvanında Ana və Uşaqların Mühafizəsi İnstitutunun (indiki K.Fərəcəova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu) həyətindəki birmərtəbəli köhnə binada seksiya otaqları, Səməd Vurğun (keçmiş Qızıl Ordu) küçəsi 25 ünvanındakı binada (sonralar Bədən Tərbiyəsi İnstitutu yerləşən bina) – auditoriyalar və professor-müəllim heyətinin kabinetləri yerləşdirilib. Sonralar muzey və əməkdaşların kabinetləri Korqanov (indiki Rəsul Rza) küçəsi 12 ünvanındakı binanın (Azərbaycan Dövlət Tibb İnstitutunun klubuna verilən bina) ikinci mərtəbəsindəki otaqlara köçürülüb. 1946-cı ildə kafedra indiki A.A.Bakıxanov (Aşağı Bulvar) küçəsi 23 ünvanındakı dördmərtəbəli binanın yuxarı iki mərtəbəsindəki otaqlara köçürülüb. 1953-cü ildə bu binaları da boşaltmaq məsələsi qaldırılıb. Bu ərəfədə Qoqol (indiki Mərdənov Qardaşları) küçəsi 98 ünvanında yeni anatomik korpusun tikintisi gedirdi (Bu binanın tikintisinə müharibədən əvvəlki illlərdə başlanılıb, müharibədən sonra yenidən davam etdirilib). Yeni binanın tikintisi yarımçıq olsa da kafedranın əməkdaşları vaxtından əvvəl həmin binaya köçürülüb. Yalnız kafedra ora köçürüldükdən bir il sonra binanın tikintisi tam başa çatdırılıb. Hazırda da ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrası məxsusi olaraq morfoloji fənlər üçün nəzərdə tutulan və 1953-cü ildən fəaliyyət göstərən 3 №-li tədris korpusunda, yəni Anatomik korpusda yerləşir. Ümumiyyətlə, bu bina İtaliyadan çağırılmış professional mütəxəssislər və alman mütəxəssisləri tərəfindən inşa edilib. İlkin göstəricilərə görə kafedra binanın birinci mərtəbəsində və ikinci mərtəbəsinin bir hissəsində, eləcə də zirzəmi kompleksində yerləşdirilib. Kafedranın meyit təsərrüfatı yerləşdirilmiş sahədən başqa yerdə qalan istifadəli sahəsi 1070 kv.m olub. Kafedranın bütün otaqları təmizliyi, işıqlı olması, dizaynı cəhətdən seçilir. 1980-1995-ci illərdə kafedranın ümumi ərazisinin sahəsi 2561 kv.m olub. Hazırda bu göstərici 3276 kv.m-dir. Belə ki, zirzəminin sahəsi 1980-1995-ci illərdə - 305 kv.m olub, 1995-2009-cu illərdə həmin sahə - 390 kv.m-ə, birinci mərtəbədəki otaqların sahəsi - 1488 kv.m-dən 1542 kv.m-ə, ikinci mərtəbədəki otaqların sahəsi - 768 kv.m-dən, 1344 kv.m-ə, muzeyin ümumi sahəsi qeyd olunan illəri əhatə edən dövrlərdə - 297 kv.m-dən 521 kv.m-ə çatdırılıb.

1995-2009-cu illərdə kafedranın yaradılmasının 90-cı ildönümü ərəfəsində kafedrada əsaslı təmir-bərpa işləri aparılıb, bütün otaqların tavanı müasir üslubda düzəldilib, divarların üzlükləri keyfiyyətli materiallarla işlənilib. Binanın ilkin istifadəyə verilməsindən sonra kafedrada ilk dəfə belə əsaslı təmir işləri yerinə yetirilib. Əsaslı təmir-bərpa işləri, həmçinin, kafedranın yüksək akustikaya malik mühazirə zalında (Anatomik Teatrda) da aparılıb.

2016-cı ildə kafedranın müdiri İnsan anatomiyası kafedrasının tariximizin bir hissəsini təşkil edən və nadir preparat incilərinə, zəngin arxeoloji tapıntılara malik olan unikal tədris muzeyinin dövlət muzeyləri reyestrinə daxil edilməsinin vacibliyi haqqında ATU-nun rektoru professor G.Ç.Gəraybəyliyə təqdimat məktubu ilə müraciət etdi. Cənab rektor öz növbəsində müvafiq qurumlara eyni məzmunlu məktub

göndərdi. 2016-cı ilin sonları və 2017-ci ilin əvvəllərində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri kafedraya gələrək, tədris muzeyinin bütün eksponatlarını nəzərdən keçirərək, onların ümumisayını, eləcə də saxlanılma şəraitlərini müəyyənləşdirdilər, həmçinin, həmin eksponatların mühafizəsinin təşkilinə və digər məsələlərə diqqət yetirərək, lazımi qeydlər apardılar.

2017-ci ilin mart ayının 1-də Azərbaycan Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini Sevda Məmmədəliyevanın imzası ilə ATU-nun rektoru professor G.Ç.Gəraybəyliyə məktub təqdim edildi. Nazirliyin blankında yazılmış məktubun surəti mətnə əlavə olunaraq oxuculara təqdim edilir:

*AZƏRBAYCAN RESPUBLİKASININ*
*MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ*

*№ 559/02“01”.03.2017*

*Azərbaycan Tibb Universitetinin*
*rektoru cənab Gəray Gəraybəyliyə*

*21 fevral 2017-ci il tarixli*
*1/303 nömrəliyə*

***Hörmətli Gəray müəllim!***

*Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasında fəaliyyət göstərən Tədris Muzeyinin fəaliyyətini təqdirəlayiq hesab edir və ekspezisiyada nümayiş etdirilən eksponatların, cəmi 4226 ədəd Azərbaycan Respublikası muzey sərvətlərinin və muzey kolleksiyasının uçotu və mühafizəsinə dair təlimata uyğun olaraq qeydiyyata alınması işinin tam həcmdə aparılması ölkəmizin muzey fondunun zənginləşdirilməsi işinə böyük töfhədir.*

*Qeyd edirik ki, Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının Tədris Muzeyi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edilibdir.*

*Hörmətlə,*
*Nazir müavini Sevda Məmmədəliyeva*

100 – illik tarixə malik muzeyin unikallığı xarici ölkələrdən gəlmiş yüksək səviyyəli mütəxəssislər tərəfindən də məmnunluqla qeyd edilir. Bunu onların muzeyə aid rəy kitabında qələmə aldıqları yazılarda da aydın sezmək mümkündür. Son günlərin rəylərindən bir neçəsini oxucuların diqqətinə çatdırmağı lazım bildik.

*“Dəyərli Vaqif Hocam,*

*Azərbaycanda Tibb fakültəsinin yaradılmasının 100 illiyi münasibəti ilə universiteti ziyarətim sırasında Anatomiya kafedrasını da ziyarət etmiş olmaqdan çox məmnun oldum. Xüsusi ilə tələbələrinizə verdiyiniz imkanlardan çox təsirləndim. Həm ümumi anatomiya, həm də müasir və texnoloji imkanları bir araya gətirdiyinizdən özümü çox xoşbəxt və bəxtiyar hiss etdim. Gələcəkdə universitetlərimiz arasında əlaqələrin artmasını arzu edirəm”.*

*Sayqılarla, Prof. Dr. Nuri Aydın*
*İstanbul Cərrahpaşa Universitetinin Rektoru*
*19 aprel, 2019.*

*“Azərbaycan Tibb Universitetinə dərin sevgi və hörmətlə!*

*Hörmətli kafedra müdiri! Biz universitetinizdə təhsil alan iraqlı tələbələrə baş çəkmək üçün İraq Milli Dövlət Televiziya Kanalından (“İragia TV”) gəlmişik. Azərbaycan*

*TibbUniversiteti ilə tanışlıq zamanı Anatomiya kafedrası böyük tarixə və elmə malik olması ilə bizdə xoş təəssüratlar yaratdı. Biz çox xoşbəxtik və qürur hissi duyuruq ki, bizim iraqlı tələbələr Azərbaycan Tibb Universitetində belə bir kafedrada təhsil alırlar. Burada dərin biliyə malik müəllimlər çalışır. Arzu edirəm ki, bizim tələbələr davamlı olaraq Azərbaycan Tibb Universitetinə gəlib təhsil alsınlar. Sizlərin də bizim İraqdakı Universitetə gəlməyinizi istərdik. Sizə dərin təşəkkürümüzü bildiririk".*

*Direktor, Proqram rəhbəri, jurnalist*
*Faleh Hadi Hamza*
*25 aprel, 2019*

*"Bu gün biz – ATU-nun 1979-cu il məzunları böyük məmnuniyyətlə Anatomiya muzeyini ziyarət etdik. Professor Mübariz Allahverdiyev bizə muzeyin yenidən qurulması barədə, muzeyin tarixi haqqında geniş məlumat verdi. Bizi, 70-ci illərin tələbələrini muzey sözün əsl mənasında valeh etdi. Kafedranın müdiri Rusiya Elmlər Akademiyasının akademiki, ə.e.x., professor V.Şadlinskinin rəhbərliyi altında kafedra əməkdaşlarının gördükləri möhtəşəm işlərə görə minnətdarlığımızı bildiririk. Professor Balakişiyevi, professor Hacıyevi minnətdarlıqla yad edirik".*

*ATU-nun 1979-cu il məzunları adından*
*Professor Şəfəq Rəhimova*
*09 may, 2019*

***Kafedranın ştat göstəriciləri.*** Kafedranın təşkilinin ilk illərində onun ştatı 6 nəfərdən ibarət olub: 1 nəfər kafedra müdiri, 1 nəfər prozektor, 2 nəfər prozektor köməkçisi, 2 nəfər texniki işçilər qismində fəaliyyət göstərib. Sonrakı illərdə onların sayı tədricən artmağa başlayıb. 1920-1926-cı illərdə kafedranın ştatı 9 nəfərə çatdırılıb. Onlardan 1 nəfəri kafedra müdiri, 2 nəfəri prozektor, 4 nəfəri prozektor köməkçisi, 2 nəfəri texniki işçilər olub. 1930-cu ildə isə kafedranın ştat göstəricisi 10 nəfərə çatdırılıb. Onlardan 1 nəfərini kafedra müdiri, 2 nəfərini prozektor, 5 nəfərini prozektor köməkçisi, 2 nəfərini isə texniki işçilər təşkil edib.

1930-cu ildə BDU-nun Tibb fakültəsi bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutu (indiki Azərbaycan Tibb Universiteti) yaradıldıqdan sonra tələbələrin sayının artması kafedranın dərs yükü ştatına da təsir göstərib. Bununla əlaqədar olaraq kafedranın həm professor-müəllim heyəti, həm də texniki işçilərinin sayı artırılaraq, ümumilikdə 25 nəfərə çatdırılıb. Belə ki, 1930-cu ildən etibarən ştat tədricən artmaqda davam edib və 1940-1960-cı illərdə bu sahədə müəyyən stabillik yaranıb. Qeyd olunan illərdə kafedranın professor-müəllim heyətinin tərkibi – 12, tədris-köməkçi heyətinin tərkibi – 8, texniki heyətin tərkibi – 5 nəfərdən ibarət olub. Həmin dövrdə professor-müəllim heyətindən 2 nəfəri əməkdar elm xadimi, tibb elmləri doktoru, professor (onlardan da biri kafedra müdiri), 5 nəfəri tibb elmləri namizədi, dosent, 5 nəfəri assistent vəzifələrini icra edib, qalanları texniki işçi qismində fəaliyyət göstərib.

1964-1965-ci tədris ilində kafedrada 32 nəfər əməkdaş fəaliyyət göstərib. Onlardan 1 nəfəri kafedra müdiri, əməkdar elm xadimi, professor, 1 nəfəri kafedranın professoru, əməkdar elm xadimi, 6 nəfəri – dosent, 7 nəfəri – assistent, 2 nəfəri – baş laborant, 3 nəfəri – laborant, 1 nəfəri – baş preparator, 2 nəfəri – maserator, 1 nəfəri – soyuducu qurğu mexaniki, 1 nəfəri – kremasiya sobası mexaniki, 5 nəfəri – texniki heyət, 2 nəfəri – liftçi qismində fəaliyyət göstərib.

1965-1966-cı illərdə kafedrada 15 nəfər professor-müəllim heyəti fəaliyyət göstəribdir ki, onlarlardan da 4 nəfəri – saat hesabı dərs aparıb. Kafedrada həmin ildə, həmçinin, 7 nəfər tədris –

köməkçi, 5 nəfər – texniki heyət, 2 nəfər – liftçi, 3 nəfər – meyit təsərrüfatı işçisi çalışıb.

1965-1970-ci illərdə isə kafedra əməkdaşlarının ümumi sayı 41 nəfərə çatdırılıb. Belə ki, onlardan 26 nəfərini professor-müəllim heyəti (1 nəfəri – kafedra müdiri, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, 1 nəfəri – tibb elmləri doktoru, professor, 4 nəfəri – dosent, 19 nəfəri – assistent və baş laborant), 8 nəfərini – tədris köməkçi heyət, 7 nəfərini – texniki heyət təşkil edib.

1980-1985-ci illərdə kafedra əməkdaşlarının ümumi sayı 36 nəfərdən ibarət olub. Onlardan 21 nəfərini – professor-müəllim heyəti, 8 nəfərini – tədris-köməkçi heyəti, 7 nəfərini – texniki heyət təşkil edib.

1990-1995-ci illərdə kafedra əməkdaşlarının ümumi sayı 40 nəfərdən ibarət olub. Onlardan 25 nəfərini – professor-müəllim heyəti, 8 nəfərini – tədris-köməkçi heyəti, 7 nəfərini – texniki heyət təşkil edib.

1995-2000-ci illərdə kafedra əməkdaşlarının ümumi sayı 42 nəfərdən ibarət olub. Onlardan 27 nəfərini – professor-müəllim heyəti, 8 nəfərini – tədris-köməkçi heyəti, 7 nəfərini – texniki heyət təşkil edib.

2000-2005-ci illərdə kafedra əməkdaşlarının ümumi sayı 43 nəfərdən ibarət olub. Onlardan 28 nəfərini – professor-müəllim heyəti, 8 nəfərini – tədris-köməkçi heyəti, 7 nəfərini – texniki heyət təşkil edib.

2005-2009-cu illərdə kafedra əməkdaşlarının ümumi sayı 47 nəfərdən ibarət olub. Onlardan 34 nəfərini – professor-müəllim heyəti, 14 nəfərini – tədris-köməkçi heyəti, 7 nəfərini – texniki heyət təşkil edib.

2009-2010-cu illərdə kafedranın əməkdaşlarının ümumi sayı 57 nəfərdən ibarət olub. Onlardan 33 nəfərini – professor-müəllim heyəti, 1 nəfərini – muzey müdiri, 3 nəfərini – laborant, 2 nəfərini – baş preparator, 9 nəfərini – preparator, 2 nəfərini – kremator, 1 nəfərini – meyitxana xidmətçisi, 6 nəfərini – xadimə təşkil edib.

2010-2015-ci illərdə kafedra əməkdaşlarının ümumi sayı 54 nəfərdən ibarət olub. Onlardan 33 nəfərini – professor-müəllim heyəti, 13 nəfərini – tədris-köməkçi, 8 nəfərini – texniki heyət təşkil edib.

2018-2019-cu tədris ilinin ştat göstəricilərinə görə kafedranın dərs yükü mövcüd olduğu əvvəlki illərlə müqayisədə ən yüksək həddə çatdırılıb. Belə ki, həmin tədris ilində professor müəllim heyətinin tərkibi 46 nəfərdən, digər köməkçi əməkdaşların tərkibi isə 27 nəfərdən ibarət olub ki, bu da ümumilikdə 73 nəfər təşkil edir. Qeyd olunan 27 nəfərdən 8 nəfəri – tədris-köməkçi heyət, 19 nəfəri isə texniki heyət qismində fəaliyyət göstərib. Professor-müəllim heyətindən 1 nəfəri – kafedra müdiri, Rusiya Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, əməkdar həkim, tibb elmləri doktoru, professordur, 1 nəfəri – əməkdar elm xadimi, tibb elmləri doktoru, professordur, 6 nəfəri – tibb elmləri doktoru, professordur, 12 nəfəri – tibb üzrə fəlsəfə doktoru, dosentdir, 7 nəfəri – tibb üzrə fəlsəfə doktoru, baş müəllim (onlardan 1 nəfəri – doktorluq dissertasiyası üzərində işləyir), 6 nəfəri – tibb üzrə fəlsəfə doktoru, assistent (onlardan 1 nəfəri – doktorluq dissertasiyası üzərində işləyir), 6 nəfəri – elmi dərəcəsiz assistent (onlardan 4 nəfəri – fəlsəfə doktorluğu dissertasiyası üzərində çalışır), 5 nəfəri – baş laborantdır. Bunlardan əlavə ixtisasca klinisist olan 1 nəfər kafedrada anatomik işlərlə də məşğul olur və kafedranın dissertantı qismində tibb üzrə fəlsəfə doktorluğu üzərində çalışır. Tədris köməkçi heyətdən 1 nəfəri – müzey müdiri, 1 nəfəri baş preparator, 6 nəfəri – laborantdır. Texniki heyətdən 3 nəfəri – meyitxana xidmətçisi, 7 nəfəri – xadimədir.

***Kafedranın tədris-metodik işi.*** 1931-1932-ci tədris ilinə qədər Normal anatomiya kafedrasında fənnin tədrisi 2 il, yəni 4 semestr, 1931-1935-ci illərdə – 2 semestr, 1935-1946-cı illərdə – 3 semestr, 1946-1950-ci illərdə – 4 semestr, 1951-2018-ci illərdə – 3 semestr ərzində aparılıb. 2018-2019-cu tədris ilindən etibarən I və II Müalicə-profilaktika, həmçinin Hərbi-tibb fakültələrində – 4 semestr, Stomatologiya və İctimai səhiyyə (Tibbi-profilaktika) fakültələrində – 3 semestr ərzində aparılır.

1952-ci ildə anatomiya fənni üzrə təcrübə məşğələlərinin proqramına rentgenanatomiya bölməsi daxil edilib.

Əczaçılıq fakültəsində dərslər 1 semestr ərzində tədris olunur.

Təhsilin Avropa Kredit sisteminə keçidi ilə əlaqədar olaraq kafedrada kompyuter dərs otaqları təşkil edilib. Son illər bütün mühazirə və praktik məşğələlər əyani vəsaitlərin, videodisklərin – multimedia sistemlərinin nümayişi ilə müşayiət olunur. Kafedrada fənnin tədrisi İctimai səhiyyə (Tibbi-profilaktika) və Tibbi-biologiya fakültələrində 2004-cü, Stomatologiya fakültəsində 2009-cu, Müalicə-profilaktika, Pediatriya, Hərbi-tibb fakültələrində isə 2011-ci tədris ilindən etibarən tədrisin kredit sistemi ilə aparılmasına başlanılıb.

Sonralar tədrisdə aparılan islahatlar nəticəsində Tibbi-biologiya fakültəsi ləğv edilib. 2010-cu ildən Hərbi-tibb fakültəsi yaradılıb. Daha sonra Tibbi-profilaktika fakültəsi İctimai səhiyyə fakültəsi adlandırılıb.

1919-1930-cu illərdə fənnin tədrisi yalnız rus dilində, 1930-2004-cü illərdə Azərbaycan və rus dillərində tədris olunub, 2004-cü ildən indiyə qədər həm də ingilis dilində tədris olunur.

***Kafedranın elmi-tədqiqat işləri.*** 1919-1964-cu illərdə kafedrada 234 elmi iş yerinə yetirilib. Bu illər ərzində 8 nəfər tibb elmləri doktoru elmi dərəcəsinə, 17 nəfər isə tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülüb. 1965-1973-cü illərdə 3 nəfər doktorluq, 3 nəfər namizədlik dissertasiyası müdafiə edib. 1973-1981-ci illərdə 2 nəfər namizədlik, 1982-1994-cü illərdə 1 nəfər doktorluq, 10 nəfər namizədlik dissertasiyası müdafiə edib. Bu illər ərzində 203 elmi iş çap olunub.1995-2018-ci illərdə kafedrada 8 doktorluq, 23 namizədlik dissertasiyası hazırlanıb, onlardan Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının assistenti namizədlik dissertassiyası işini mənim elmi rəhbərliyim altında İnsan anatomiyasl kafedrasında yerinə yetirib. Ümumiyyətlə, son illər ərzində 7 nəfər doktorluq, 23 nəfər namizədlik dissertasiya hazırlayıb.Hazırda kafedrada 2 nəfər doktorluq, 5 nəfər namizədlik dissertasiyası işlərini başa çatdırmaq üzərində çalışırlar.

1965-2010-cu illərdə kafedra əməkdaşlarının çap etdirdikləri elmi işlərin sayı 1300-dən çox, 2010-2019-cu illərdə isə 350-ə yaxın elmi əsər çap olunub.

Kafedrada yaradılan Tələbə Elmi Cəmiyyəti (TEC) aktiv fəaliyyət göstərir. Hazırda kafedra üzrə TEC-in rəhbəri professor B.H.Hüseynovdur. kafedranın müdiri professor V.B.Şadlinski tələbələrin elmi işlərə cəlb olunmalarını həmişə diqqət mərkəzində saxlayır. Onun təşəbbüsü ilə 2003-cü il tarixində professor G.Ş.Hacıyevin anadan olmasının 80 illik yubileyi münasibəti ilə keçirilən elmi konfransın materialları toplusunda ilk dəfə olaraq TEC-də iştirak edən tələbələrin elmi işləri çap olunub və bu da onların elmi işlərə cəlb olunmaları üçün effektli bir stimul yaradıb.

***Kafedranın beynəlxalq əlaqələri.*** ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları yarandığı gündən indiyə qədər beynəlxalq əlaqələrini daim genişləndirir və inkişaf etdirir. Bu əlaqələr nəticəsində kafedranın əməkdaşları keçmiş SSRİ miqyasında, indiki

Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində, Almaniyada, İngiltərədə, ABŞ-da, Fransada, İsraildə, Türkiyədə, İran İslam Respublikasında, Özbəkistanda, İtaliyada, eləcə də digər xarici ölkələrdə keçirilən elmi konfrans, konqrens, simpozium və qurultaylarda, həmçinin, başqa elmi formlarda yaxından iştirak edir, elmi inteqrasiyaları möhkəmləndirirlər.

Hazırda İnsan anatomiyası və tibbi terminologiya kafedrasının (2018-ci ildə yeni islahatlarla əlaqədar olaraq kafedranın adı dəyişdirilərək "İnsan anatomiyası və tibbi terminologiya kafedrası" adlandırılıb) əməkdaşları İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin, Xarkov Tibb Universitetinin, Saratov Tibb Universitetinin, Dağıstan Tibb Universitetinin, Gürcüstan Tibb Universitetinin, Türkiyə Universitetlərinin Tibb fakültələrinin anatomiya kafedralarının rəhbərlikləri ilə bağladıqları müqavilə əsasında beynəlxalq əlaqələrini inkişaf etdirirlər.

Hazırda kafedranın professor-müəllimheyəti 45 nəfərdən ibarətdir: onlardan 8 nəfəri – tibb elmləri doktoru, professor (onlardan da 1 nəfəri – akademik, 2 nəfəri – əməkdar elm xadimidir); 12 nəfəri – tibb üzrə fəlsəfə doktoru, dosent, 8 nəfəri – tibb üzrə fəlsəfə doktoru, baş müəllim, 5 nəfəri– tibb üzrə fəlsəfə doktoru, assistent, 7 nəfəri – assistent, 5 nəfəri – baş laborant vəzifəsində çalışır.

Həmçinin, kafedrada 26 nəfər – tədris yardımçı personal fəaliyyət göstərir: onlardan 1 nəfəri – muzey müdiri; 5 nəfəri – laborant; 1 nəfəri – baş preparator; 9 nəfəri – preparator; 3 nəfəri – meyitxana xidmətçisi; 7 nəfəri – xadimə vəzifəsini yerinə yetirir.

Kafedranın yaradılmasının 100 – illik yubileyi münasibəti ilə ölkə Prezidenti cənab İlham Əliyevin səhiyyəyə, təhsilə, elmə göstərdiyi diqqət və qayğısı sayəsində kafedrada yenidən qurulan, ən yeni avadanlıqlarla təchiz edilən təhsil və elm ocağı bu yaxınlarda professor-müəllim heyətinin və tələbələrin ixtiyarına verildi. Bu münasibətlə Azərbaycan Respublikasının səhiyyə naziri cənab Oqtay Şirəliyev və Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli 2019-cu il fevralın 19-da kafedraya gələrək həmin mərkəzlə yaxından tanış oldular, kafedranın professor-müəllim heyətini, tələbələri şərəfli yubiley münasibəti ilə təbrik etdilər, arzu və təkliflərini bildirdilər.

Mən də, bu günkü fürsətdən istifadə edərək, kafedranın bütün əməkdaşları adından, eləcə də öz adımdan hər zaman bizə yaxından diqqət və qayğı göstərdiklərinə görə ölkə Prezidenti cənab İlham Əliyevə, həmçinin, Azərbaycan Respublikasının səhiyyə nazirliyi və Azərbaycan Tibb Universitetirəhbərliyinə səmimi minnətdarlığımızı bildirir, dərin təşəkkürlərimizi yetirirəm.

***VAQİF ŞADLİNSKİ,***
***ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri,***
***ə.e.x., professor***